# ƏDƏBİYYATDA MİLLİLİK HAQQINDA

***Dilbər ZEYNALOVA***
*(Xəzər Universitəsi)*

Dünyanın bədii-estetik dərki incəsənətin müxtəlif sahələrini,o cümlədən ədəbiyyatın yaranmasının əsas şərtlərindəndir. Məlumdur ki,hər bir sənət doğma xalqının taleyinin,onun kulturoloji inkişafının,psixologiyasının təzahürü,estetik dərki kimi təkamul tapır.Ümumiyyətlə, dünyanın estetik dərkinə bir çox ünsürlərlə yanaşı,insanın milli mənsubiyyəti əxlaqi görüşləri də böyük təsir göstərir. Bədii yaradıcılığın milli özünəməxsusuluğu geniş və mürəkkəb problemdir.Milli xüsusiyyətlərin səciyyələndirilməsi,millilik anlayışının məna tutumu,milli xarakterin əfsanə,yaxud gerçək olması və b. məsələlərə münasibərdə fərqli yanaşmalar mövcuddur.Son zamanlar sözügedən problemin ədəbi-estetik,nəzəri-fəlsəfi və kultroloji şərhində elmi fikir müəyyən irəliləyişlər,prinsipial nəticələr əldə etmişdir.Şübhəsiz, hər bir xalqın özünəməxsus vərdişləri,adət-ənənələri,məişəti,həmçinin xüsusi təfəkkür və dünyanı dərketmə tərzi vardır.Millik sənətkarın xalqa,onun taleyinə münasibətindən,milli kimliyi necə səciyyələndirməsindən,eləcə də üslubundan asılıdır.Millilik bədii yaradıcılığın mahiyyəti ilə bağlı kateqoriyadır. Ədəbiyyatda milliyin təzahürü bir çox hallarda xalqın ictimai-siyasi həyatı,əxlaqı və məişəti,adət-ənənələri,psixologiyası ilə bağlılıq dərəcəsindən asılıdır.Tarixi keçmiş və milli yaddaşdan gətirilən örnək hadisə və obrazlarla bir çox sənətkarlar milli-mənəvi mövcudluq üçün vacib olan amil və şərtləri diqqət önünə çəkmişlər.Bu səbəbdən də ədəbi yaradıcılıqda millik probleminin uğurlu bədii inikası və bu inikasın milli özünüifadə şəklində təzahür etməsi təbii və qanunauyğun bir haldır.

Milli özünüifadə-xalqın ruhunun, tarixi yaddaşının, əxlaq-davranış normalarının, mental xüsusiyyətlərinin, bir bütöv olaraq, mənəvi dəyərlər sisteminin sənətkarın yaradıcılığında ideya-məzmun, mövzu-motiv, dil, obraz, süjet və s. səviyyələrdə bədii təcəssümüdür.Ədəbi fəaliyyətdə bu təcəssüm

a)milli əxlaq və davranış normalarını əks etdirən mənəvi dəyərlərə(milli qürür, xalq müdrikliyi, milli heysiyyat-mərdlik, igidlik, namus, qeyrət və s.) geniş yer verilməsi;

b)milli səciyyələrin obrazların və xarakterlərin yaradılması;

c)söykök, tarixi-etnik yaddaş, milli özünəqayıdış, milli kimlik problemlərinin müxtəlif bədii vasitə və üsullarla inikası;

d)folklora ardıcıl,sistemli müraciət və bağlılıq şəklində gerçəkləşir.

Milli əxlaq və davranış normalarını əks etdirən mənəvi dəyərlər ədəbiyyatda ilk növbədə iki istiqamətdə təzahür edir:

1.Sənətkarın özünün bədii yaradıcılıqda nümayiş etdirdiyi ideya-estetik baxışlarda

2.Obrazaların davranış və psixologiyasında,eləcə də obraz dilinin xəlqi koloritə malik linqvistik qatlarında.

Azərbaycan ədəbiyyatının,xüsusən nəsrin inkişafında və keyfiyyətcə yeniləşməsində özünəməxsus rolu olan İsmayıl Şıxlının zəngin və çoxşaxəli yaradıcılıq yolu özünün bütün mərhələ və məqamlarında həmişə xəlqi ruhu və milli səciyyəsi ilə seçilmişdir.Görkəmli ədibin nəsrdə qazandığı yaradıcılıq uğurlarında xəlqi zəminə,milli dəyərlərə dərin köklərlə bağlılığın əsas,həlledici amillərdən biri kimi önə çıxması ilk baxışdanca sezilən qabarıq bir gerçəklikdir. Milli kolorit yazıçının sənət dünyasına kənadan təsir edən köməkçi-yardımçı bir vasitə deyildir.Milli kolorit bu yaradıcılığın birbaşa özündə,onun daxili mahiyyət və mayasındadır.

Bu bir həqiqətdir ki,İsmayıl Şıxlı sosialist realizminin ədəbiyyatda hegemon olduğu dövrdə böyük sənətkarlıq manerası işlədərək,milli-mənəvi dəyərələrə xüsusi həssaslıqla yanaşmışdır."Sinfi və milli dəyərlər belə kəskinliklə ilk dəfə "Dəli Kür"də (İsmayıl Şıxlı) üz-üzə gəldi və milli kolorit,milli-etnik səciyyə həm formada həm də məzmunda nihilist,beynəlmiləl abstraksiyanı üstələdi".(Yaşar Qarayev.Tarix:yaxından və uzaqdan".Bakı,Sabah,1996,s.499.) Üzərində kifayət qədər üzünmuddətli yaradıcılıq axtaışları apardığı "Dəli Kür"romanının(1957-1967) həm bütov epik mənzərəsi ilə,həm də təqdim etdiyi yeni tipli baş qəhrəmanı-Cahandar ağa obrazı ilə sovet ədəbiyyatı ənənələrinin ədəbi-estertik kriteriyalarından cəsarətlə uzaqlqşan İsmayıl Şıxlı, saxta və qondarma "beynəlmiləl abstraksiyanı"(Yaşar Qarayev) milli tarixi yaddaşla əvəzlədi.Az qala hər səhifəsi,hər sətri ilə torpaq,yurd,el qeyrəti,igid şərəf və namusu,yenilməzlik,əyilməzlik düşüncəsi,özünüdərk,özünəinam təlqin edən bu möhtəşəm əsər Cahandar ağa kimi qeyri-adi milli xarakter yetirən bir xalqın rus əsarəti və işğalı altında yaşamasının mümkünsüz və yolverilməz olduğunu gizli bir manifest şəklində irəli sürürdü.

"Dəli Kür"romanının epik kontekstində əzəmətli milli xarakter kimi ucalan Cahandar ağa türk kişisinin mental xüsusiyyətlərini özündə cəmləşdirir: mərddir, qeyrətlidir, igiddir, sərt və sözübütövdür. Ər kimi, ata kimi, qardaş kimi qürürlü və ağır təbiətlidir.Bunlar azaəbaycanlı-türk kişisi üçün bütün tarix boyunca səciyyəvi cizgilərdir.Başqa sözlə,yazıçı Cahandar ağa obrazını yaradarkən özünün üzunmuddətli müşahidələrindən çıxış edərək,bu müşühidələri böyük ustalıqla ümumiləşdirmiş və milli xarakterlə bağlı etnik-mənəvi yaddaşın,ilk növbədə folklorun tarixi təcrübə kimi təqdim etdiyi obrazların,dastan qəhrəmanlarının səciyyəvi keyfiyyətlərindən yaradıçı şəkildə bəhrələnmişdir.

Azərbaycan-türk milli xarakterinin unikal ifadəsi olan Cahandar ağanın elat-tayfa başçısı kimi hərəkət və dünya baxış sistemi oğuz elinin başçısı Qazan xanın ("Kitabi-Dədəm Qorqud") hərəkət və davranış parametrlərinə bir çox cəhətdən uyğun gəlir. Hətta bir sıra aparıcı istiqamətlərdə onların hadisə və

proseslərə olan münasibətləri,demək olar ki,üst-üstə düşür. (Ata-oğul münasibətləri, namus-qeyrət məsələsində alternativsizlik,yuxuda baş verə biləcək hadisələrin bəyan olması və s.) Cahandar ağa ailə və cəmiyyətlə bağlı hər bir taleyüklü məsələdə,xüsusən də milli-mənəvi dəyərlərin,tarixi-etnik yaddaşın qorunmasında əski oğuz tayfa qayda-qanunlarının diktəsi ilə hərəkət edir,hətta bəzən sərt addımlar da atır.(Yal-quyruğu qırxılmış atının alnına tərəddüd etmədən qurşun sıxır,içini qurd kimi gəmirən şübhələrdən qurtulmaq üçün canından əziz bildiyi bacısını güllələyir və s.)Bu sərt mövqe Cahandar ağanın tarixi ənənədən qəbul etdiyi və mühafizəkarlıqla daşıdığı tarixi-milli norma daşlaşmış şəkildədir,onu dəyişdirmək,yumşaltmaq imkansızdır.Elə buna görə də sanki bu obraz XIX yüzilliyin ortalarında Rusiya imperatorluğunun bir əyalətində deyil,əski çağların qədim oğuz cəmiyyətində yaşayır.Bir sözlə,bədii obrazın simasında cəmləşən xarakterik xüsusiyyətlər öz genetik kodları etibari ilə etnosun mənəvi-tarixi yaddaşına,folklor və etnoqrafiya qaynaqlarına bağlıdır.Bəlkə də buna görədir ki, bu roman istedadlı yazıçı qələminin məhsulu olan qüdrətli nəsr əsərindən başqa,həm də möhtəşəm bir xalq eposuna bənzəyir. Mədəniyyətin bütün sahələrində parlaq nümunələr yaratmış Azərbaycan xalqının milli irsi bu baxımdan da diqqəti cəlb edir.

## ƏDƏBİYYAT

1. Kitabi-Dədə Qorqud.Bakı,Yazıçı,1988.
2. Qarayev Y. Tarix: yaxından və uzaqdan.Bakı,Sabah

### Summary

### NATIOANALITY PROBLEM IN LITERATURE

***Dilber ZEYNALOVA***
*(Khazar University)*

One of the basic conditions of the arising of literature as well as different areas of the art of the world is considered to be the artistic-aesthetic cognizance of the world. It is known that each art realizes itself as the appearance of culturological development, psychology of fate of the native people and of its aesthetic cognizance. In general, the nationality character and of course morality of the man as the number of other elements influence greatly the artistic-aesthetic cognizance of the world. National characterizing features of art, creative activities are wide and complicated problem. Last year’s scientific thought and approach to the artistic-aesthetic, theoretical-philosophical, culturological interpretation of the problem attained definite flourishing, and principal results.

**Key wods: nationality, character**